

*İsmayıl İMANZADƏ, Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsinin sədri*

# “ÜMİD” - CƏBRAYILIN ƏDƏBİ SİMVOLU

Elə bəri başdan deyim ki, bu yazını qələmə alıb, oxuculara təqdim etməyimtarix üzrə fəlsəfə doktoru, ehtiyatda olan polis polkovniki, şair Əjdər Yunus Rzanınfeysbukda mənə ünvanlanmış bir sorğusu ilə bağlıdır. Ötən yüzüllüyün yetmiş-səksəninci illərində demək olarki, bütün rayonlarda çeşidli adlar altında fəaliyyət göstərib yerli ədəbiyyat həvəskarlarını bir araya gətirən ədəbi dərnəklər mövcud idi vəadətən onların əksəriyyəti rayon qəzetlərinin nəzdində fəaliyyət göstəririldi. Ali məktəbi bitirib Füzulidə işlədiyim üç il ərzindəhəmin rayonda çıxan “Araz” qəzetinin nəzdində də şair Oruc Sədanın rəhbərlik etdiyi bir ədəbi məclis fəaliyyət göstərirdi.Yerli yazarlardan Mətləb Misir, Vəzir Hacıyev, Mahmud Qacar, Faiq Şükürbəyli, Kərim Kərimli, Süleyman Qaradağlı... ilə yanaşı məclisin ən fəal üzvlərindən biri də mən idim. Yeri gəlmişkən deyim ki, vaxtıyla Azərbaycan Yazıçılar İttifaqının Gəncə (Kirovabad) filialının tədbirlərinə dəfələrlə qatıldığımdan və tələbəlik illərimdə “Ədəbiyyat və incəsənət”, “Kirovabad kommunisti”, “Kolxozçu”, “Ulduz”(səhv etmirəmsə Şəmkirdə, ya da Gədəbəydə çap olunurdu) qəzetlərində və “Azərbaycan” jurnalınada şeirlərim dərc olunduğundan Füzulidəki dostlarım mənə ciddi söz adamı kimi yanaşırdılar...

O zamanlar belə ədəbi dərnəklərdən biri də yetmişinci illərin əvvəllərində bizim rayon qəzetinin nəzdində yaradılmışdı. Üç ildən sonra pedaqoji fəaliyyətimi öz rayonumuzda davam etdirən kimi həmin dərnəyin bir neçə məşğələsində mən də iştirak etməyə başladım. Həmin vaxtlarda yerli qəzetdə həm publisistik yazılarım, həm də şeirlərim dərc olunmaqda idi. Ancaq düzünü desəm, dərnəyə rəhbərlik edən şəxsin (qəzetin şöbə müdirlərindən biri) hələ bərkdən-boşdan çıxmayan ədəbiyyat həvəskarlarına qarşı (elə yeri gələndə mənim özümə də) kobudluğu ucbatından, qəzetlə əməkdaşlığımı davam etdirsəm də, dərnəkdən aralanıb, ölkə mətbuatına üz tutdum.Mənim gedişindən sonra çox keçmədən dərnəyin varlığına son qoyuldu...

1977-ci ilin noyabr ayının sonları idi, rayona gələndən sonra dostlaşdığım ədəbiyyat sevdalılarının ən fəallarından olan Hüriyyət Məmmədov bir nəfər gənc oğlanla kəndimizə gəlib, mənimlə görüşdü və dedi ki, yeni bir ədəbi məclis yaratmaq arzusuyla rayon komsomol komitəsinə müraciət etmişik. Yəqin ki, bu məsələ tezliklə öz həllini tapacaq.

Bir neçə həftədən sonra elə Hüriyyətin dediyi kimi də oldu. Dekabrın 23-də komsomolun büro iclasında bu məsələyə baxıldı, ad seçiminə gələndə təklif etdim ki, ədəbi məclis “Xudafərin” adıyla fəaliyyətə başlasın. Büro üzvlərindən üç nəfər də mənim təklifimi dəstəklədi. O vaxtlar rayon komsomoluna rəhbərlik edən Heyran Kalbalıyeva kiməsə zəng etmək üçün qonşu otaqlardan birinə keçdi və beşon dəqiqədən sonra qayıdıb dedi ki: “Yoldaşlar bu adı məsləhət bilmədilər. gəlin ayrı ad tapaq! Dedim: “Bir halda ki, belədir, onda ədəbi məclisimiz “Ümid” Ədəbi Klubu adıyla fəaliyyətə başlasın!”(Bu ad mənə daha doğma idi. 1969-cu ildə işlədiyim orta məktəbdə “Ümid” adlı bir ədəbi dərnək yaratmışdım.Yuxarı sinif şagirdlərindən Əjdər, Fəxrəddin, Nuridə, Mahirə... dərnəkdə fəal iştirak edirdilər. (Həmin ilin yaz aylarından birində onların hərəsinin bir şeiri mənim təqdimatımla yerli qəzetdə dərc olunmuşdu...)

1978-ci il yanvar ayının 14-də ədəbi məclisin ilk yığıncağı keçirildi. Tədbirdə otuzdan çox ədəbiyyat həvəskarı, raykomun şöbə müdiri Qorxmaz Bayramov, komsomolun I katibi Heyran Kalbalıyeva, mədəniyyət şöbəsinin müdiri Fikrət Məmmədov, rayon qəzetinin redaktor müavini Ədil Şərifov və digər rəsmi şəxslərlə yanaşı, həmin vaxt rayonda ezamiyyətdə olan “Azərbaycan gəncləri” qəzetinin xüsusi müxbiri, şair Şahmar Əkbərzadə də iştirak edirdi...

“Ümid”in hər ayın 14-də, saat 11-də keçirilən məşğələ günləri aylar-illər keçdikcə öz bəhrəsini verməyə başladı. “Klubun” ən ümid verən üzvləri,-Hüriyyət Məmmədov, Fərzalı Abbasəlioğlu, Əlirza Xələfli, Tariyel Abbasov, Eldar Məmmədvəliyev, Nəriman Hüseynov, Şakir Albalıyev, Kifayət Əliyeva, Valeh Heydərov, Hüseyn Əfəndiyev, Musa Aslanxanlı, Qorxmaz Abdullayev, Mirzə Mirimov, Vahid Hüseynov, Hidayət Səfərov, Əhməd Fərhadov, Malik Əhmədoğlu, Tamella Quliyeva, Böyükkişi Heydərov, Əziz Musayev, Kəmalə Həsənova, Musa İsmayılov, Əlisahib İsrafilov, Ənvər Mehdiyev, Hüseyn Hüseynov, Alış Kamalov, Mərcan Şəhriyari, Əli Eyvazov, Oruc Məmmədəliyev, Zahid Rzaquliyev, Məhəmmədəli Mehdixanov, Həsən Səfiyev və başqaları söz ocağımızın dövrəsində özlərini çox rahat hiss edirdilər...

Adlarını qeyd etdiyim yazarları mənimlə dostluq telləri birləşdirirdi. Məşğələ günləri oxunan yazılar müzakirə olunur, sərbəst şəkildə hərə öz fikrini çəkinmədən söyləyə bilirdi. Fərqli mülahizələrə hörmətlə yanaşır, gənc yazarlarımızın püxtələşməsi naminə əlmədən gələni edirdim.Məclisdə azad və səmimi ab-hava yarada bilmişdim. Burada kinə-qərəzə, acı sözə yer yox idi. Görünür, həmin vaxtlara qədər qəzet və jurnallarda tez-tez yazılarımın yer alması, bir neçə almanaxda çap olunmağım və ilk kitabın nəşr edilməsi mənə yönəlik ehtiram hissinin başlıca səbəblərindən biri idi...

Günlər, aylar ötüb keçdikcə, sözün əsl mənasında “Ümid” Ədəbi Klubunun səsi-sorağı rayonumuzdan uzaqlarda da eşidilməkdə idi. Şəxsi nüfuzumdan və Bakıdakı bəzi qəzet və jurnallarda işləyən dostlarımla iliq münasibətlərimdən yararlanaraq ən istedadlı hesab edilən klub üzvlərinin və özümün şeir və hekayələrimiz “Sovet kəndi”, “Azərbaycan müəllimi”,”Azərbaycan gəncləri”, “Kommunist”... qəzetlərində, “Azərbaycan”, “Kənd həyatı”, “Ulduz”, “Göyərçin”, “Təşviqatçı” jurnallallarında (özü də bəzisində dəfələrlə) dərc edilməsinə yardımçı olmuşdum. Adlarını çəkdiyim keçmiş yaradıcı dostlarımın əksəriyyəti bu gün həyatdadır. Halal xoşları olsun, heç birindən qonqalıq nədir, heç bir çaynik çayın da təmənnasında olmamışam. O vaxtlar da, elə Mingəçevirdə AYB-nin bölməsinə rəhbərlik edəndə də dost kimi qolumdan yapışanları özümlə bərabər qabağa aparmış, ayaqlarımdan dartan bədxah, paxıl cızmaqaraçıların isə təpiklə sinələrindən vurub, layiq olduqları yerə yuvarlatmışam...

Yeri gəlmişkən, bir neçə dəfə xidməti işlərimlə ilgili klubun məşğələlərini aparmağı Əziz Musaya həvalə etmiş, bununla belə “Ümid”dən heç vaxt əllərimi üzməmişdim. Rayonumuzun işğal edildiyi vaxta qədər “Ümid” Ədəbi Klubunu ayaq üstə saxlaya bil-




mişdik. Ədəbi məclisimizin fəaliyyət göstərdiyi on beş ilə yaxın müddət ərzində görkəmli və tanınmış qələm sahiblərindən Sabir Süleymanov, Sabir Əhmədli,Hüseyn Arif, Atif Zeynallı, Kələntər Kələntərli, Şahmar Əkbərzadə, Fərman Kərimzadə, Vaqif İbrahim,Oktay Rza, Çingiz Əlioğlu, Vaqif Bəhmənli, Eldar İbrahim, Ağasəfa, Adil Cəmil, Rüstəm Behrudi, Məmməd Namaz... ayrı-ayrı dönəmlərdə istəkli qonaqlarımız olmuş,rayona gəlişləri “Ümid”in məşğələ gününə təsadüf edəndə tədbirə qatılmaqla, yazarlarımıza xeyir-dualarını vermişdilər. Ayrıayrı vaxtlarda bizi ziyarət edən yaradıcı dostlarımızla, sonrakı dönəmlərdə isə“Ümid”in üzvləri ilə məktəblərdə, əmək kollektivlərində, Cəbrayıl şəhərində, ayrı-ayrı kəndlərdə dəfələrlə poeziya gecələri keçirmişik. Adətən, yerli qəzetdə dərc olunan şeir və nəsr əsərləri klubun rəmzi loqası altnda oxuculara təqdim olunurdu.“Ümid”lü illərimdə tematık plana əsasən “Gənclik” və “Yazıçı” nəşriyyatlarında 4 kitabım, mərkəzi qəzet və jurnallarda üç yüzə yaxın şeirim, publisistik yazılarım dərc edilib. Rayonun işğalından qabaq, “Ümid” Ədəbii Klubunun üzvü olan 35 nəfərin şeir və hekayələri mənim tərtibçisi, Zülfüqar Şahsevənlinin isə redaktoru olduğu “Xudafərin nəğmələri” adlı almanaxı “Gənclik” nəşriyyatında çap etdirmişəm.

“Ümid” Ədəbi Kulubu cəbrayıllı yazarların ədəbi simvolu, rayonumuzun sənətə böyük önəm verən sakinlərinin isə iftixar rəmzi idi.O vaxtlar məsul vəzifələrdə çalışan Vaqif Məhərrəmov (hazırda ehtiyatda olan polis polkovniki, rayon Ağsaqqallar Şurasının sədri), Heyran Kalbalıyevadan sonra rayon gənclər (komsomol) komitəsinə rəhbərlik edən Vaqif Hüseynov, Ələddin Məmmədov, Adil Şərifov, tanınmış ziyalılarımızdan Qorxmaz Bayramov, Gülzar Behbudova, Kifayət Ouliyeva, Sahib Abdullayev, Hüseyn Əliyev rayon prokuroru Şamil Bağırov, ayrı-ayrı dönəmlərdə rayon qəzetinə rəhbərlik etmiş Sirac Rüstəmov, Ədil Şərifov, Hafiz Hüseynov, yerli qəzetin əməkdaşlarından Əmir Abbasov, Əlirza Xələfli, Afər Əhmədov, Sərməst Seydəliyev, Seyfəddin Əliyev, Tənzilə Camalova, Barat Mirkişiyev, Telman Aslanov, Gülarə Əliyeva... həmin illərdəki təsərrüfat rəhbərlərindən Köçəri Babayev, Əfsər Hüseynov, maarif şöbə müdiri Osman Vəliyev, böyük şahmat ustası və nəzəriyyəçisi kimi adı dillərdə gəzən Şəhriyar Quliyev... bəzi məktəb direktorları (adlarını unutduğum xeyirxah həmyerlilərim məni bağışlasınlar) “Ümid” Ədəbi Klubunun və onun üzvlərinin ən yaxın dostları, təbliğatçısı idilər...

**P.S.** Yazıda adları çəkilən şəxslərin bir qismi köçkünlük illərində dünyalarını dəyişiblər, Allah onların hamısına qəni-qəni rəhmət eləsin!

**P.S.S.** Köçkünlük dalğası məni Mingəçevirə atan kimi “Ümid” Ədəbi Klubunun da varlığına son qoydu. Ancaq bununla belə istəkli alim-şair eloğlum Yusif Dirili “Dirili Aşıq QurbaniMəclisi”ni yaradıb, bir vaxtlar “Ümidin” bağrından qopan qələm dostlarımı və paytaxt Bakıda müxtəlif bölgələrdən olan istedadlı qələm sahiblərini bir araya gətirməklə, on beş ilə yaxın zaman kəsimində ata yurdumuz Cəbrayılda şölə saçan “Ümid”in də gözərtisini sönməyə qoymadı. Yusif müəllimlə yanaşı istəkli yaradıcı dostlarım-Tariyel Abbaslı, Sabir Şirvan, Malik Əhmədoğlu və onların həmkarları Dirili Aşıq Qurbani babamızınadıyla süslənən söz ocağının dövrəsinə saz-söz sevdalılarını toplamaqla, ədəbi proseslərin ön sıralarında yer almağa nail oldular. İnşallah, ömür möhlət versə, “Ümid”in “şinelindən” çıxaraq, son iyirmi səkkiz il ərzində püxtələşən, böyük bir qismi AYB-yə üzv qəbul edilən yazar eloğlu-elqızlarımla birlikdə (sevindirici haldır ki, son nillərdə onların sırasına xeyli sayda gənc həmyerlilərim də qoşulublar) doğma yurd yerlərimizə qayıdaraq,rayonumuzun bərpa-tikinti işlərində fəal iştirak etməklə yanaşı, “Ümid” Ədəbi Klubunun da qəddiniu dikəldəcəyik. Üzü yurd yerinə gedən yolumuz açıq olsun, dostlar!

*Mingəçevir şəhəri, 28.09.2021*